**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN**

**S Ə R Ə N C A M I**

**“Cəlil Məmmədquluzadənin140 illik**

**yubileyinə həsr olunmuş Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Resoublikası Prezidentinin “Cəlil Məmmədquluzadənin 140 illik yubileyi haqqında” 2009-cu il 6 fevral tarixli Sərəncamının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Cəlil Məmmədquluzadənin 140 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**

**Ali Məclisinin Sədri VASİF TALIBOV**

Naxçıvan şəhəri, 14 fevral 2009-cu il

№ 185-3/S

**Naxçıvan Muxtar Respubliksı**

**Ali Məclisi Sədrinin 2009-cu il 14 fevral**

**tarixli 185-03/S nömrəli Sərəncamı ilə**

**təsdiq edilmişdir**

**Cəlil Məmmədquluzadənin 140 illik**

**yubileyinə həsr olunmuş**

**Tədbirlər Planı**

| S/№ | Tədbirlər Planı | İcra müddəti | İcraya məsul təşkilat |
|---|---|---|---|
| 1. | Cəlil Məmmədquluzadənin 140 illiyi ilə əlaqədar yubiley tədbirlərinin təşkil olunması | 2009-cu il | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı |
| 2. | “Cəlil Məmmədquluzadə və demokratik ədəbi-ictimai fikir” mövzusunda beynəlxalq simpoziumun keçirilməsi | Oktyabr, 2009-cu il | Azərbaycan Milli Elimlər Akademiyasının Naxçıvan bölməsi, Naxçıvan Dövlət Universiteti ,Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi |
| 3. | Böyük ədib Cəlil Məmməd-quluzadənin 100 il bundan əvvəl yazdığı “Ölülər” əsərinin tamaşasının və əsər barədə elmi konfransın təşkili | İyun, 2009-cu il | Naxçıvan Dövlət Universiteti, Azərbaycan Milli Elimlər Akademiyasının Naxçıvan bölməsi |
| 4. | Cəlil Məmmədquluzadənin 140 illiyi ilə əlaqədar yubiley poçt marka və zərflərin buraxılması | Sentyabr, 2009-cu il | Naxçıvan Muxtar Respubli-kasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi |
| 5. | Cəlil Məmmədquluzadənin “Dəli yığıncağı” əsəri və ədibin hekayələrinin motivləri əsasında hazırlanmış “Qurbanəli bəy” tamaşalarının göstərilməsi | 2009-cu il | Naxçıvan Muxtar Respubli-kasının Mədəniyyət və Turizm Nazirliyi |
| 6. | Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev muzeyinin təmiri, ev muzeylərinin yeni eksponatlarla zənginləşdirilməsi | Fevral-oktyabr, 2009-cu il | Naxçıvan Muxtar Respubli-kasının Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 7. | “Cəlil Məmmədquluzadə ensiklope-diyası”nın | 2009-cu il | Azərbaycan Milli Elimlər |

| | | | |
|---|---|---|---|
| | hazırlanıb nəşr edilməsi | | Akademiyasının Naxçıvan bölməsi, Naxçıvan Dövlət Universiteti |
| 8. | Cəlil Məmmədquluzadənin adını daşıyan muzeylərdə tematik tədbirlərin, muxtar respublikanın mədəniyyət müəssisələrində yubileylə əlaqədar oxucu konfranslarının keçirilməsi, ədibin əsərlərindən ibarət sərgilərin hazırlanması | İl ərzində | Naxçıvan Muxtar Respubli-kasının Mədəniyyət və Turizm Nazirliyi |
| 9. | Cəlil Məmmədquluzadənin 140 illiyinə həsr olunmuş yubiley zirvə tədbirlərinin geçirilməsi | Oktyabr, noyabr, 2009-cu il | Naxçıvan Muxtar Respublikası Ali Məclisi |
| 10. | “Naxçıvan” ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bir nömrəsinin Cəlil Məmmədqulu-zadənin 140 illiyinə həsr olunması | Sentyabr, 2009-cu il | Naxçıvan Dövlət Universiteti |
| 11. | Cəlil Məmmədquluzadənin ailəsin-dən dünyanın müxtəlif ölkələrində yaşayan nümayəndələrinin yubiley tədbirlərinə dəvət olunması | Oktyabr, 2009-cu il | Naxçıvan Dövlət Universiteti, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi |
| 12. | Cəlil Məmmədquluzadənin 140 illiyi ilə əlaqədar tematik verlişlərin və qəzet materiallarının hazırlanması keçirilən tədbirlərin işıqlandırılması | 2009-cu il | Naxçıvan Muxtar Respubli-kasının kütləvi informasiya vasitələri |